*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 oktyabr 2020-ci il № 68 (2486) Qiyməti 30 qəpik

# Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib

*Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. Oktyabrın 11-də həmin televiziya kanalında dövlətimizin başçısının müsahibəsi yayımlanıb.*

*AZƏRTAC müsahibəni təqdim edir.*



**- Əvvələn, çox sağ olun ki, bizimlə müsahibəyə razılıq vermisiniz. Söhbətə başlamazdan əvvəl mən RBK-nın prinsipləri barədə danışmaq istərdim. Bir neçə gün bundan əvvəl Ermənistanın baş naziri ilə böyük müsahibə gedib, indi isə burada - Azərbaycanda, Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyev ilə söhbət edəcəyik. Daha bir remarka. Mən ilk sualı verməzdən əvvəl hər iki tərəfdən həlak olanların bütün doğmalarına başsağlığı vermək istəyirəm. Müharibənin heç kimə lazım olmaması və müharibəsiz də ötüşməyin mümkünlüyü barədə çox eşitmişəm. Lakin bundan sonra ən çətini və yəqin ki, ən maraqlısı başlanır. Danışıqlar başa çatıb. Siz Moskvada baş verənləri necə qiymətləndirirsiniz? Bütün bunların nə demək olduğunu anlamaq bizim üçün çox vacibdir.**

- Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm. Ona görə ki, danışıqların yekunları ilə bağlı yayılmış bəyanatda humanitar mülahizələrə əsasən atəşkəs rejiminin elan edilməsi bildirilir. Prinsipial əhəmiyyətli bir məqam da odur ki, bu, Azərbaycanın mövqeyi idi. Mən şadam ki, həmin mövqe bu sənəddə öz əksini tapıb. Ermənistan ilə Azərbaycan arasında substantiv danışıqlar başlanır, həmçinin danışıqların formatının dəyişməz qalması təsdiqlənir. Ermənistanın yeni hakimiyyəti bu iki mövqeyi pozmağa çalışırdı. Ona görə ki, heç kəs üçün sirr deyil, İrəvandan səslənən bəyanatlar mahiyyət etibarilə uzun illər ərzində işlənib hazırlanmış danışıqlar prosesini, o cümlədən baza prinsiplərini, danışıqların formatını pozmağa yönəlmişdi. Buna görə prinsipial əhəmiyyətli məqam odur ki, Ermənistan tərəfi anlamağa məcbur oldu ki, baza prinsipləri nizamlama üçün əsasdır, həmin prinsiplərdə isə münaqişənin necə nizamlanmalı, Azərbaycanın işğal edilmiş ərazilərinin hansı ardıcıllıqla qaytarılmalı olduğu dəqiq göstərilib. İkincisi, danışıqların formatı dəyişməz qalır. Bu, o deməkdir ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılırdı, aparılır və aparılacaq. Ermənistan rəhbərliyinin bu məsuliyyəti Dağlıq Qarabağda mövcud olan oyuncaq rejimin üzərinə qoymaq üçün göstərdiyi bütün cəhdlər uğursuz oldu. Beləliklə, əminəm ki, bundan sonra Paşinyandan "Qarabağ Ermənistandır" sözlərini bir daha eşitməyəcəyik. Həmçinin onun belə bəyanatlarını eşitməyəcəyik ki, Azərbaycan danışıqları qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "rəhbərliyi" ilə aparmalıdır. Əgər o, belə bəyanatlar verərsə, bu, o demək olacaq ki, o, həm vasitəçilərə, həm də Moskvada bu mətni razılaşdırmış öz nümayəndə heyətinə hörmətsizlik edib və mahiyyət etibarilə, o, danışıqlar prosesini yenidən pozur. Bu dəfə həmin bəyanatlar nəyə gətirib çıxardı? Zənnimcə, bunu hamı aşkar görür, lakin düşünmürəm ki, o, ikinci dəfə həmin səhvi təkrarlayar.

**- Atəşkəs nə qədər davam edəcək? Bu atəşkəsin amanabəndliyini Siz necə qiymətləndirirsiniz? O, nədən asılı olacaq?**

- İndiki eskalasiyaya qədər atəşkəs uzun müddət, onilliklər boyu davam etdi. Təmas xəttində müəyyən toqquşmalar olub, bu il iyul ayında dövlət sərhədində erməni tərəfinin təxribatları olub. Lakin son 30 ilə yaxın müddətdə bu qədər genişmiqyaslı əməliyyatlar olmayıb. Buna görə hər şey erməni tərəfindən asılı olacaq. Əvvələn, o, atəşkəsə riayət edəcəkmi? Ona görə ki, bu gün səhər və dünən, yəni, bu gecə və səhər mənim aldığım məlumata görə, erməni qüvvələri bir neçə istiqamətdə genişmiqyaslı əks-hücum cəhdləri göstərib, Hadrutu geri almağa, Cəbrayıl rayonunda, şimal istiqamətində bizim azad etdiyimiz əraziləri geri almağa cəhd göstərib. Yəni, onlar Moskvada tərəflərin razılığa gələ biləcəyini başa düşdüklərindən itirdiklərini və onlara məxsus olmayanları maksimum həcmdə özlərinə qaytarmağa çalışıblar. Buna görə də atəşkəs rejiminin möhkəmliyinin əsas amili bu olacaq ki, Ermənistan bu ərazilərin bizdə olması ilə, onun həmin əraziləri bir daha heç vaxt görməyəcəyi ilə barışmalı və bunu hərbi yolla geri almağa heç bir cəhd göstərməməlidir.

Bundan heç də az əhəmiyyətli olmayan ikinci amil indicə haqqında danışdığım məsələdir. Biz danışıqlar masası arxasında Ermənistan tərəfindən konstruktiv yanaşma görməliyik, yəqin etməliyik ki, onlar danışıqlar prosesini imitasiya etmək cəhdlərindən əl çəkiblər, təhrikçi əməllərdən, bəyanatlardan çəkiniblər və nizamlama yolunun tapılması məqsədinə sadiqdirlər. Son bir il ərzində erməni tərəfindən gördüklərimiz məhz danışıqlar prosesini pozmağa və məsuliyyəti Azərbaycanın üzərinə qoymağa yönəlmişdi. Buna görə də baxarıq, biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Mən həmişə demişəm ki, bizim imzamız da sözümüz kimi əhəmiyyətlidir. Lakin atəşkəs birtərəfli proses deyil və biz baxarıq, görək erməni tərəfi özünü necə aparır.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib

(Əvvəli 1-ci səhifədə)

**- Danışıqlara başlamaq üçün Azərbaycanın irəli sürdüyü şərtlərdən biri konkretlik idi. Deyilirdi ki, erməni tərəfi qoşunların çıxarılması üçün konkret plan təqdim etməlidir. Bu, Ermənistanın razılaşıb-razılaşmamasından asılı olmayaraq danışıqların indi başlanması deməkdirmi?**

- Bilirsinizmi, biz bunu əsas götürmüşük ki, əlbəttə, münaqişəni siyasi yolla həll etməyə üstünlük verilməlidir və uzun illər boyu bizim bütün fəaliyyətimiz buna yönəlmişdi. Bu səbəbdən, dünən və bu gecə Moskvada aparılmış məsləhətləşmələr çərçivəsində biz onlardan danışıqlar masası arxasında tam təslim olmalarını tələb etdik. Başa düşürük ki, Paşinyan rejimi yetərincə zəifləyib. Bu rejim daxili siyasi səbəblərə görə eskalasiyadan əvvəl də zəifləmişdi. İndi daha çox zəifləyib. Mən hesab etmirəm ki, indi Ermənistanda bir inqilab baş verməsi və qatı millətçilərin, radikalların, azərbaycanofobların hakimiyyətə gəlməsi Azərbaycanın xeyrinə olar. Buna görə biz razılaşdırılmış bəyanat çərçivəsində konkret tarixlər göstərilməsini təkid etmədik. Lakin şübhəsiz ki, bu, erməni işğalçı qüvvələrinin bizim ərazilərdən razılaşdırılmış şəkildə çıxarılmasını nəzərdə tutur. Bəyanatda substantiv danışıqlara, yəni baza prinsiplərinə istinad edilir, orada isə hər şey konkret yazılıb: beş rayon nə vaxt azad ediləcək, daha iki rayon nə vaxt azad ediləcək.

**- Danışıqlar nə vaxt başlanacaq, bu barədə artıq anlaşma varmı?**

- Biz sabah başlamağa hazırıq. Buna görə hər şey ATƏT-in Minsk Qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır. Bizim tərəf dərhal başlamağa hazırdır. Yeri gəlmişkən, deməliyəm ki, bəyanatın mətni ilə əlaqədar Azərbaycan tərəfinin bütün istəkləri nəzərə alınıb. Bəyanatın ilkin variantı tamam fərqli idi. Dünən mən onu görəndə dedim ki, bu, bizim üçün münasib deyil. Sənədi həddən artıq qəlizləşdirmək, ağırlaşdırmaq, danışıqlar prosesinin son mərhələsində müəyyən edilməli olan elementləri oraya inkorporasiya etməyə çalışmaq lazım deyil. Onu maksimum sadələşdirmək lazımdır. Yadımdadır ki, orada olmayanları nəzərə aldıq, danışıqlara dərhal başlamaq bəndinin daxil olunmasını xahiş etdik. Yəni, biz mümkün qədər tez nizamlamada maraqlıyıq. Ona görə ki, nizamlama bizim vətəndaşların, qaçqınların, daxili köçkünlərin öz evlərinə qayıtmalarına imkan verəcək.

**- Burada olduğum iki gün ərzində başa düşdüyümə görə Azərbaycanda bu əhval-ruhiyyədədirlər ki, biz axıradək getməliyik. İndi azərbaycanlılara necə izah etməli ki, Bakı yenidən danışıqlara razılıq verib?**

- Biz axıra qədər gedəcəyik. Biz dayanmamışıq. Əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda, dünən dediyim kimi, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda axıra qədər gedəcəyik. Bizim məqsədimiz dəyişməz qalır. Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılması. Buna görə bizim məqsədimiz dəyişməz qalır. Sadəcə, bu məqsədə doğru necə getməliyik? Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil. Biz döyüş meydanında göstərdik ki, bu, belə deyil. Göstərdik ki, hərbi tərkib hissəsi olmasa, bu danışıqlar daha 30 il davam edərdi. O vaxta qədər nələr baş verərdi? Qanunsuz məskunlaşdırma. Bu, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarının pozulmasıdır. Təəssüf ki, buna heç kəs - nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, bizim mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin dəyişdirilməsi, rayonlarımızın inzibati sərhədlərinin dəyişdirilməsi, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsi. Yəni, biz daha 30 il gözləməli olardıq, sonra da bizə deyərdilər ki, bilirsiniz, iş belə gətirib, bununla barışın. Bizə belə də deyirdilər. Buna görə düşünürəm ki, hərbi yol və ya onun birinci mərhələsi sona çatıb, indi biz siyasi nizamlama mərhələsinə çatmışıq. Məhz bu mərhələ bizim axıra qədər getməyimizi və hüquqa görə bizə məxsus olanı almağımızı təmin edəcək. Ona görə düşünürəm ki, Azərbaycan cəmiyyəti dünən və bu gecə baş verənləri çox düzgün qəbul edəcək və bizim siyasətimizi bundan sonra da dəstəkləyəcək. Çünki biz həmişə xalqa həqiqəti demişik. Həmişə xalqın mənafelərini müdafiə etmişik. Döyüş meydanında baş verənlər bunu bir daha hamıya sübut etdi.

**- Siz bütün bu hadisələrə qədər Ermənistanın baş naziri Nikol Paşinyan ilə bir neçə dəfə görüşmüsünüz. Bu hadisələrdən sonra Siz onunla bir masa arxasına əyləşməyə və ya danışmağa hazırsınızmı?**

- Bilirsinizmi, böyük etimad bəsləmədiyin adamla danışmaq çətindir. Mən onun sələfləri, müharibə cinayətkarları hesab etdiyim adamlarla danışıqlar aparmağa məcbur idim. Çünki onlar Xocalıda qanlı soyqırımı törədiblər, onlar Azərbaycanın dinc əhalisini məhv etməkdə, bizim tarixi və mədəni irsimizin dağılmasında təqsirkardırlar. Lakin mən məcbur idim. Ona görə ki, biz bu münaqişənin nizamlanması yolunu tapmalı idik. Ermənistanda yeni iqtidar, yeni rəhbərlik hakimiyyətə gələndə əvvəlcə onlarla əlaqələrimiz çox ümidverici idi. Mən bir dəfə bu barədə danışmışam, təkrarlamaq istəmirəm. Lakin sonra tamam əks hadisələr baş verdi, yəni, biz özümüzü aldadılmış hiss etdik. Biz başa düşürük ki, rəqiblə danışıqlar aparırıq, lakin hətta rəqiblə, düşmənlə də münasibətdə vicdanlı qalmaq, heç olmasa öz qarşısında vicdanlı olmaq, öz sözünə hörmət etmək lazımdır. Bunlar baş verəndə, təbii ki, bizim bu mənasız fəaliyyəti davam etdirmək istəyimiz aradan qalxdı. Opponentin hər kəlməsi yalandırsa, onun yalanları dünya KİV-lərində yayılırsa, bütün dünyaya translyasiya edilirsə, onunla nə barədə danışmaq olar? Yəqin onlar öz ölkələrində yalan danışmağa adət ediblər. Lakin internet dövründə tarix barədə, münaqişənin mahiyyəti barədə yalan danışanda bu yalan çox tezliklə ifşa olunur. Buna görə mən belə imkanı istisna etmirəm, lakin bunun üçün müəyyən şərait lazımdır. İndiki mərhələdə mən bunu səmərəli hesab etmirəm. Əksinə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Mən istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özümə heç vaxt rəva görməmişəm. Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik. Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi.

**- Siz indicə Rusiyanın rolu barədə danışdınız. Yəni, bu danışıqlarda Rusiyanın rolu həqiqətən həlledici olub.**

- Əlbəttə, Minsk qrupunun həmsədri kimi Rusiya ATƏT tərəfindən üç ölkəyə verilmiş hüquq və səlahiyyətlərə malikdir. Lakin sözsüz ki, Rusiya bizim qonşumuz kimi, həm Azərbaycanla, həm də Ermənistanla ortaq tarixə malik olan bir ölkə kimi, əlbəttə, xüsusi rol oynayır. Şübhəsiz, bu rol xalqlarımızın tarixinə və qarşılıqlı əlaqələrinə, həmçinin Rusiyanın dünyada və əlbəttə, bizim regionda sanbalına və roluna əsaslanır. Buna görə, əlbəttə, münaqişənin nizamlanmasına təsir göstərmək üçün Rusiyanın imkanları bu obyektiv səbəblərə görə hər hansı başqa ölkənin imkanları ilə müqayisəyəgəlməz dərəcədə çoxdur. Buna görə biz dəfələrlə Rusiya rəhbərliyinə müraciət etmişik ki, Rusiya rəhbərliyi Ermənistana siyasi təsir göstərmək vasitələrindən istifadə etsin, erməni tərəfini inandırsın ki, işğala son qoyulmalıdır. Bu mövzu dəfələrlə müzakirə edilib və sizə deyə bilərəm ki, rusiyalı həmkarımla bütün çoxsaylı görüşlərimdə bu mövzu ya müfəssəl, ya o qədər də ətraflı olmayan formada müzakirə edilib, lakin belə olmadı. Axı, gizli deyil ki, bu gün Ermənistan Rusiyadan 100 faiz asılı vəziyyətdədir. Onun təhlükəsizliyi Rusiya tərəfindən təmin edilir, pulsuz silahlanması Rusiya tərəfindən təmin edilir. Biz Ermənistana məxsus, bəlkə də milyardlarla dollar dəyərində texnikanı iki həftə ərzində məhv etdik. Onlarda bu pullar haradandır? Onların pulu yoxdur. Bütün bunlar Rusiyadan pulsuz göndərilir. Qaz təchizatı Rusiyadan güzəştli qiymətlərlə təmin olunur, elektrik enerjisi də müəyyən dərəcədə güzəştlə verilir. Dəmir yolları, rabitə, hərbi baza. Hətta Ermənistanın Türkiyə və İranla sərhədini rusiyalı sərhədçilər qoruyur. Əgər belə olmasaydı, sərhəd boş qalardı. Ermənistana təsir göstərmək üçün daha hansı ölkənin bu qədər vasitələri var? Heç bir ölkənin. Bəlkə də dünyada başqa elə iki ölkə yoxdur ki, onlardan biri digərindən bu qədər tam asılı olsun. Buna görə əminəm ki, Rusiya tərəfindən təkid göstərilsə, bizim status-kvonu dəyişməyimiz, təmas xəttini yarıb keçməyimiz nəticəsində İrəvanın ayılması nəzərə alınmaqla Rusiya qısa müddətdə Ermənistanı inandıra bilər: təkcə hərbi qarşıdurma baxımından deyil, bütövlükdə Ermənistanın gələcəyi üçün indiki vəziyyətdən yeganə çıxış yolu Azərbaycanla münaqişənin həllini tapmaqdır. Bu həll isə çox sadədir - onlar bizim ərazidən getməli, öz qoşunlarını çıxarmalı, bizim insanlar oraya qayıtmalı və biz yenidən yanaşı yaşamağa çalışmalıyıq.

**- İndi başqa ölkə - Türkiyə haqqında soruşmaq istəyirəm. Bu günlər ərzində Azərbaycanı və şəxsən Sizi dəfələrlə bunda ittiham ediblər ki, əslində, bu münaqişə ilə bağlı bütün məsələləri Türkiyənin hakimiyyət orqanları idarə edirlər. Dünən, bu gecə biz Türkiyəni danışıqlar masası arxasında görmədik. Nə üçün?**

- Bu, onu göstərir ki, bütün bu fikirlər yalan idi, bu, qəsdən ortaya atılmış məsələ idi, burada bir neçə məqsəd vardı. Əvvələn, Türkiyəni daha da iblisləşdirmək. Təəssüf ki, Qərbdə bu məqsəd müasir siyasi modanın hansısa normasına çevrilir. Bu, tamamilə əsassızdır. Türkiyə öz maraqlarını güdür, öz həyatını yaşamaq hüququnu qoruyur. Prezident Ərdoğanın dövründə Türkiyə Qərbin itaətkar müttəfiqi olmağa son qoyub. O, həm öz regionunda, həm də dünyada öz şərtlərini diktə edir. Türkiyə ilə hesablaşırlar. Türkiyənin nüfuzu artıb. Türkiyə ordusu NATO-da ikinci yeri tutur. O, istənilən hərbi-siyasi problemi həll edə bilər. Buna görə, əlbəttə, Qərb tərəfindən bu cür açıq təzyiq göstərilir. Bu təzyiq hətta Türkiyəyə münasibətdə hansısa çox qəribə və mənfi emosional fonla bağlıdır. Yəni, birinci səbəb Türkiyəni iblisləşdirmək istəyidir. İkinci səbəb Azərbaycanın potensialını, o cümlədən hərbi-texniki potensialını azaltmaq və belə təsəvvür yaratmaq cəhdidir ki, hərbi məsələni Türkiyə və ya onun təsiri altında olan başqa birisi həll edib. Xeyr, biz öz torpaqlarımızı özümüz azad etmişik. Belə adlandırılan "müzəffər erməni ordusu" haqqında mif puç oldu, əslində, belə ordu yox idi. Münaqişənin tarixinə dərindən bələd olanlar çox gözəl bilirlər ki, bizim torpaqlarımız, o cümlədən sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən işğal edilib. Xankəndidə yerləşən bu alaydakı hərbi qulluqçuların məncə 70 faizi erməni mənşəli idi. Yəni bu, şəxsi heyəti ermənilərdən ibarət olan sovet silahları, sovet komandanlığı idi. Onlar həm etnik təmizləmələrdə, həm də soyqırımında fəal rol oynayırdılar.

**- Siz yəqin ki, 1990-cı illərin əvvəllərindəki hadisələri nəzərdə tutursunuz...**

- Şübhəsiz. 366-cı alayın dəstəyi və fəal iştirakı olmasaydı, Ermənistan bizim əraziləri tuta bilməzdi. Ona görə bundan sonra belə bir mif yarandı ki, erməni ordusu müzəffərdir, Azərbaycan Ordusu onun qarşısında dayana bilməz. Buna görə bu mifi saxlamaq lazım idi, amma Azərbaycan tərəfindən acı məğlubiyyətə uğradıldığını etiraf etmək görünür, Ermənistan cəmiyyəti və Ermənistan rəhbərliyi üçün çox ağır idi. Üçüncüsü, onlara dünya arenasında Azərbaycanın rolunu və əhəmiyyətini azaltmaq lazım idi. Bunu etmək isə çox çətindir. Ona görə ki, bu gün dünya ölkələri ilə Azərbaycanın çoxşaxəli iqtisadi və siyasi əlaqələri var. Bu gün biz 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına rəhbərlik edirik və yekdilliklə seçilmişik. Əgər bizim ölkəmiz müstəqil potensiala malik olmasaydı, bu cür hörmət qazana bilərdikmi? Buna görə Azərbaycanın Türkiyə tərəfindən idarə edilməsi və bizim onun iradəsini yerinə yetirməyimiz barədə bütün insunasiyalar tamamilə yalandır. Bu, həm də Türkiyə-Azərbaycan qardaşlığını pozmağa və ya müəyyən qədər zəiflətməyə yönəlib, lakin baş tutmayacaq. Yeri gəlmişkən, Azərbaycan və Türkiyə ətrafında bütün bu informasiya hay-küyü üçün əsas olsaydı, bugünkü bəyanat mənimlə razılaşdırılıb, başqa heç kimlə. Əgər bizi kimlərsə idarə etsəydi, onda yəqin ki, məsələ belə tezliklə həll edilməzdi. Hazırda Türkiyə dünyada və regionda sabitləşdirici rol oynayır. Türkiyə rəhbərliyinin, şəxsən Prezidentin və digər rəsmi şəxslərin eskalasiya dövründə fəal və çox dəqiq mövqeyi, əslində, üçüncü ölkələrin bu münaqişəyə müdaxiləsinin qarşısını aldı. Buna görə hesab edirəm ki, Türkiyənin rolu yalnız müsbətdir və o, bizim regionda, o cümlədən münaqişənin həllində daha böyük rol oynamalıdır.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib

(Əvvəli 2-ci səhifədə)

**- İndi Rusiyada çoxları "Türkiyə daha böyük rol oynamalıdır" frazasını eşidəcəklər. Bu sözlərin arxasında hansı məna var? Siz nəyi nəzərdə tutursunuz?**

- Fikrimcə, bu barədə danışmaq hələ tezdir, çünki mən Azərbaycan tərəfin mövqeyini bildirirəm. Lakin yaxın vaxtlarda müsahibələrimin birində demişəm ki, Minsk qrupu neçə illər bundan əvvəl - 1992-ci ildə, tamamilə başqa geosiyasi reallıqlar şəraitində formalaşıb. Əgər biz vasitəçilərin təmas qrupunu bu gün formalaşdırsaydıq, onun tərkibi fərqli olardı. Bu qrupun tərkibi münaqişə tərəflərinin niyyətlərini və istəklərini əks etdirməlidir. Minsk qrupunun tərkibi isə praktiki olaraq bunları əks etdirmir. Yeni təmas qrupunun və ya hansısa işçi qrupun, - onu necə adlandırmaq vacib deyil, - tərkibi regionda mövcud qüvvələr tarazlığını, region ölkələrinin mövcud maraqlarını əks etdirməli və nəticəyə istiqamətlənməlidir. Əks halda, bunun nə mənası var? Bunun heç bir mənası yoxdur. Əgər biz münaqişəni həll etmək istəyiriksə, o, yeni format çərçivəsində həll olunmalıdır. Baxın, son vaxtlar bir sıra qaynar nöqtələr barəsində ölkələrin mövqelərini razılaşdırmaq üçün nə qədər yeni əməkdaşlıq formatı yaradılıb - üçtərəfli, dördtərəfli. Axı, onlar indi yaradılır, hansısa ehkamlar əsasında deyil, real qüvvələr nisbəti əsasında yaradılır. Buna görə burada əsla şübhə ola bilməz ki, Türkiyə münaqişənin nizamlanması işində mühüm rol oynamalıdır və oynayacaq. Bunun hansı formada - hüquqi, yoxsa de-fakto həyata keçirilməsi artıq texniki məsələdir.

**- Rusiyanın rolu barədə. Mən Bakıda gəzəndə çoxlu Azərbaycan bayrağı gördüm, bir qədər az, lakin yenə də çox sayda Türkiyə bayrağı gördüm və bircə dənə də Rusiya bayrağı görmədim. Bu, o deməkdirmi ki, Azərbaycanda Rusiyanın təsiri azalıb və ya Azərbaycanda insanların Rusiyaya münasibəti dəyişib?**

- Düşünmürəm ki, münasibət dəyişib. Türkiyə bayraqlarının çox olması təbiidir. Biz qardaş xalqlarıq. Bu gün Türkiyə ilə Azərbaycan arasında etimad, qarşılıqlı dəstək və münasibətlərin səviyyəsi elədir ki, mənim fikrimcə, dünyanın hər hansı başqa, hətta ən yaxın ölkələri arasında elə səviyyə yoxdur. Bu, reallıqdır və bu reallığı biz yaratmışıq - Türkiyənin və Azərbaycanın rəhbərliyi. Özü də məsələ bizim ortaq köklərimizlə və ortaq tariximizlə bağlı deyil. Dünyada Türkiyə və Azərbaycan kimi etnik kökləri yaxın olan, lakin öz aralarında döyüşən xalqlar var. Bu, sizə də çox yaxşı məlumdur. Yaxud bir-biri ilə intriqa aparırlar. Buna görə Azərbaycanda Türkiyə bayraqlarının olması reallıqdır və əgər siz Türkiyəyə getsəniz, orada da çox yerlərdə Azərbaycan bayraqlarını görərsiniz.

Rusiyaya münasibət məsələsinə gəldikdə isə sizə bir fakt göstərə bilərəm. Pandemiyaya qədər bizdə Azərbaycana səfər edən Rusiya vətəndaşlarının sayı hər il təxminən 15-20 faiz artırdı. Keçən il bu göstərici bir milyona yaxın olub. Mən həmişə demişəm, rusiyalıları buraya cəlb edən təkcə bizim mətbəximiz, təkcə çimərliklər, təkcə tarix deyil, həm də odur ki, onlar burada özlərini rahat hiss edirlər. Öz mühitlərində olduğu kimi hiss edirlər, burada insanlarla rus dilində danışırlar. Yəqin bilirsiniz ki, bizdə, Azərbaycanda təhsilin rus dilində olduğu neçə məktəb var. Onların sayı 300-dən çoxdur. Heç yerdə belə deyil. Rusiya ali məktəbləri, onların filialları. Rusiyanın musiqi, teatr kollektivləri pandemiyaya qədər demək olar ki, hər həftə burada olurdu. Buna görə də Rusiyaya və Rusiya Federasiyasında yaşayan ruslara Azərbaycanda yalnız müsbət münasibət var. Siz artıq bir neçə gündür ki, buradasınız və erməni işğalı amilinin insanların ovqatına nə dərəcədə təsir göstərdiyini bilirsiniz. İnsanlar hər bir sözü, hər bir jesti, hər bir mimikanı duyurlar. Əlbəttə, açıq deməliyəm, bu müddətdə, bu günlər, bu həftələr ərzində bəzi Rusiya kanallarında qatı antiazərbaycan təbliğatını, tok-şouların iştirakçılarının saxtakarlığını, manipulyasiyasını, iştirakçılar heyətinin tarazlaşdırılmış olmamasını görəndə, Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir ediləndə, əlbəttə, bunlar Rusiyanın nüfuzunu artırmır. Mən bu məsələni Rusiya rəhbərliyinin diqqətinə çatdırmışam. O mənada yox ki, bunlar bizi narahat edir, Azərbaycan cəmiyyəti və ictimai fikri Azərbaycanın daxilində formalaşır. O mənada ki, belə münasibət haçansa bizim planlarımızda müəyyən çətinliklərə gətirib çıxara bilər. Rusiya ilə biz qarşılıqlı əlaqələri daha da inkişaf etdirməyi planlaşdırırıq. Hazırda biz iqtisadi və digər sahələrdə əməkdaşlıq üzrə beş yol xəritəsi üzərində fəal iş aparırıq. Siyasi baxımdan çox yaxşı məsələlər var. Lakin bu müddətdə Rusiya mediasında üzləşdiyimiz informasiya hücumu, əlbəttə, ictimai fikirdə Rusiyaya münasibətə böyük ziyan vurub. Düşünürəm ki, bu vəziyyəti qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazım gələcək.

**- Sizə daha iki sualım var. Yadınızdadırmı, sentyabrın 27-də gecə və ya səhər çağı cavab verməyə başlamaq lazım olması, bu müharibəyə başlamaq lazım olması barədə qərar necə qəbul edildi?**

- Qərarlar, praktiki olaraq, avtomatik rejimdə qəbul edilir. Azərbaycan Ordusunun hərbi qulluqçuları üçün müəyyən təlimatlar var. Düşünürəm ki, bunlar hər orduda var. Təhlükə halında, hücum halında sən necə hərəkət etməlisən. Yəni, burada necə hərəkət etmək barədə tərəddüd etmirdik. Xüsusən ona görə ki, biz bu hücumu gözləyirdik. Eskalasiyadan bir neçə gün əvvəl mən bu barədə BMT-nin kürsüsündən danışmışdım. Mənim çıxışımın mətninə baxa bilərsiniz. O vaxt mən demişdim ki, Ermənistan müharibəyə hazırlaşır. Ermənistanı dayandırmaq lazımdır. Bunun üçün dəlillər çox idi. Əvvələn, Ermənistanın müdafiə nazirinin keçən il Amerikada verdiyi bəyanat. Özü də o, bəyan etmişdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Sonra Paşinyanın "Qarabağ Ermənistandır" məzmunlu bəyanatları və sair. Daha sonra Livandan olan ermənilərin nümayişkaranə şəkildə Şuşada məskunlaşdırılmasından ibarət təhrikçi hərəkətlər müharibə cinayətidir. Daha sonra Şuşada, yeri gəlmişkən, işğalçı rejimin orada mövcud olduğu müddətdə ilk dəfə qondarma "andiçmə" mərasimi keçirməklə Azərbaycan xalqının təhqir edilməsi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Xankəndidən Şuşaya köçürmək cəhdi və bir sıra başqa əməllər. Bütün bunlar bizə qarşı təxribat idi. Sonra iyul hadisələri. Bizim hərbi mövqelərimizə təxribatçı hücumlar. Elə ilk saatlarda biz dörd hərbi qulluqçumuzu, sonra bir mülki vətəndaşımızı itirdik. Sonra avqust hadisəsi. Goranboy rayonunda təmas xəttindən keçmiş təxribat qrupunun başçısı indi ifadə verir. Biz gözləyirdik, biz hazır idik. Təbii ki, qərar, o cümlədən mənim tərəfimdən avtomatik rejimdə, heç bir tərəddüdsüz qəbul edildi. Biz təcavüzkarı yerində oturtmalı idik. İyul ayında Azərbaycan cəmiyyəti bunun davam etdirilməsini tələb edirdi. Yəqin ki, siz bunu bilirsiniz.

**- Bəli, mitinq olmuşdu.**

- Bəli. İyul ayında mitinqdə səslənən əsas şüar belə idi: "Ali Baş Komandan, bizə silah ver!" İnsanlar belə deyirdilər. İyul ayında biz Ermənistanla dövlət sərhədini rahatca keçərək Ermənistan Respublikasının geniş ərazilərini tuta bilərdik, amma biz bunu etmədik.

**- Bu hadisələr Qarabağda olmamışdı.**

- Tamamilə doğrudur. Biz bunu etmədik. Orada heç bir çətinlik yox idi və biz bunu indi göstərdik, 30 il ərzində ciddi eşelonlaşdırılmış müdafiə xəttini qırdıq, orada relyef özü müdafiə üçün münasibdir. Biz aşağıdan yuxarıya getdik, beton plitələri sındırdıq, Azərbaycan Ordusunun qeyri-adi səyləri, əsgərlərimizin və zabitlərimizin qəhrəmanlığı lazım gəldi. Oradan Ermənistanın istənilən nöqtəsinə keçmək bizim üçün çox asan idi. Lakin mən bunu dayandırdım, dedim ki, yox, biz bunu etməyəcəyik, biz onlar deyilik. Biz Ermənistanın beynəlxalq aləmdə tanınmış ərazisinə keçməyəcəyik və biz sərhədə qədər getdik, oraya soxulmuş işğalçıları qovduq və dayandıq. Yəni, bundan sonra biz təcavüzkarı cəzalandırmalı idik ki, o, bir də bizim tərəfə baxmağa belə cəsarət etməsin. Biz bunu etdik, baxın, görün indi Paşinyan necə rəzil vəziyyətdədir. Alçalır, zəng edir, yalvarır, daha kimlərə zəng etmir. Avropa İttifaqı hökumətlərinin başçılarına. Bəs, o, nə tələb edir? Onların "Dağlıq Qarabağ respublikası"nı tanımasını tələb edir. Yəni bu, Ermənistan rəhbərliyinin tamamilə qeyri-adekvat olmasına dəlalət edir. Azərbaycan ilə Avropa İttifaqı arasında sazişlər var, - onlardan biri 2 il bundan əvvəl paraflanıb, - orada deyilir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına hörmət edir. Avropa İttifaqının üzvü olan yeddi ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər var. Bu ölkələrin hamısı Azərbaycanın ərazi bütövlüyünü tanıyır. "Dağlıq Qarabağ respublikası"nın tanınmasını siyasətdən və beynəlxalq sahədə hər hansı biliklərdən tamamilə uzaq olan adam tələb edə bilər. Görün, onlar nə həddə çatıblar. Biz onları cəzalandırmalı idik. Biz onlara yerlərini göstərməli idik ki, bizimlə belə danışmaq olmaz, bu, onlara asan başa gəlməyəcək. Belə də oldu. O, anaların göz yaşlarına, cəbhəyə göndərdikləri Ermənistanın günahsız gənc vətəndaşlarının ölümünə görə cavab verəcək.

**- Azərbaycanın qaytardığı ərazilərlə bağlı vəziyyət necə olacaq, orada indi nə edəcəklər?**

- Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. Bu insanların sevincini, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının, Hadrutun təqribən 30 ildən sonra öz torpaqlarına qayıdacaq sakinlərinin sevincini təsəvvür edə bilərsiniz. Budur, azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb. Biz bunu bilirdik. Bu, Stalinqraddan da betərdir. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Başa düşürsünüzmü, onlar hətta pəncərə çərçivələrini də, unitazları da oğurlayıblar. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur. Ona görə də biz bu əraziləri bərpa edəcəyik.

**- Təzədən tikəcəksiniz?**

- Təzədən, əlbəttə. Biz kömək edəcəyik. Biz məcburi köçkünlər üçün tikinti proqramına əsasən təkcə bu il 7 min mənzil istifadəyə verəcəyik. Təsəvvür edirsinizmi? Orta hesabla hər mənzildə 5 nəfər nəzərdə tutulsa, biz bir ildə 35 min nəfəri yerləşdirəcəyik. Yəni bu, kiçik və ya hətta bizim şəraitdə orta ölçüdən böyük bir şəhər deməkdir. Zərər çəkmiş 300 mindən çox köçkünü artıq yerləşdirmişik. Köçkünlər üçün şərait yaratmaq məqsədilə biz hər il büdcədən külli məbləğdə vəsait ayırırıq. Hər bir köçkün hər ay dövlətdən müavinət alır. Demək istəyirəm ki, orada biz bu işləri görəcəyik. Biz Cəbrayılı təzədən tikəcəyik. Bütün kəndləri yenidən quracağıq. Orada yaşayacaq insanlar tikinti işlərinə cəlb ediləcəklər. Onlar öz evlərini bərpa etmək üçün məvacib alacaqlar. Oraya həyat qayıdacaq, oraya uşaqların gülüşü qayıdacaq. İnsanlar rahat nəfəs alacaq, hiss edəcəklər ki, ləyaqətlərini özlərinə qaytarıblar. İllər boyu azərbaycanlıların bu vəziyyətdə necə yaşamalarını təsəvvür edin. Təmas xəttində binoklla baxanda bizim dağıdılmış şəhərləri görərkən mənim keçirdiyim hissləri təsəvvür edin. Qoy, erməni tərəfi fikirləşsin. O, indi bunun nə demək olduğunu başa düşməyəcək. Lakin əvvəl düşünmək lazım idi, azərbaycanlıların hisslərini təhqir etmək lazım deyildi. Biz xeyirxah, sülhsevər xalqıq. Lakin biz öz ləyaqətimizi tapdalamağa, bizi təhqir etməyə imkan verməyəcəyik. Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı.

**- Siz özünüz həmin ərazilərə getməyə hazırlaşırsınızmı?**

- Əlbəttə. 2016-cı ildə biz Cocuq Mərcanlını işğaldan azad edəndə mən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edib dedim ki, bu kəndin sakinlərindən öyrənin, onlar oraya qayıtmaq istəyirlərmi? Ona görə ki, çox illər keçib, onların çoxu Bakıdadır, çoxlarının işi, uşaqları, məktəbləri var, çoxları Azərbaycanın digər regionlarında yaşayır. İş yerini dəyişmək, xüsusən hər şeyin dağıdıldığı yerə dəyişmək o qədər də asan məsələ deyil. Bilirsinizmi, bir müddətdən sonra mənə bildirdilər ki, həmin adamlar növbəyə düzülüblər. Hətta heç vaxt orada olmamış, sonradan doğulmuş gənclər də. Hamısı xahiş edirdi ki, tezliklə oraya qaytarılsınlar və biz bir ildən az müddətdə 150 evdən ibarət qəsəbə saldıq, orada məktəb, tibb müəssisəsi, məscid və bütün infrastruktur obyektləri tikdik, qaz, yol çəkdik. Bu, bizim qayıtmağımızın rəmzi oldu. Mən oraya gedəndə və bu insanların üzündəki fərəhi, sevinc göz yaşlarını görəndə bir daha özümə dedim ki, biz hökmən öz evlərimizə qayıdacağıq və əlbəttə, oranı bərpa edəcəyik. Bu illər ərzində əziyyət çəkmiş, öz doğma yurdlarının həsrəti ilə dünyasını dəyişmiş insanların ruhu şad olsun, onların övladları isə həyatlarının qalan hissəsini xoşbəxt yaşasınlar.

**- Çox sağ olun.**

- Sağ olun.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan əsgərinin döyüş andı Qələbədi

*Əks-hücum əməliyyatı uğurla davam edir. Ordumuz düşməni müxtəlif istiqamətlərdən sıxışdırır, düşmən döyüş-döyüş geri çəkilir. Düşmənin neçə-neçə strateji yüksəkliklərdən, bu sıradan Murovdağdan, Hadrutdan uzaqlaşdırılması, Suqovuşanın, Cəbrayıl şəhərinin, Füzuli rayonunun neçə-neçə yaşayış məntəqəsinin azad edilməsi düşmənin məğlubiyyət ərəfəsində olduğunun hərbi təsdiqidir.*

*Ordumuz əks-hücum əməliyyatını torpaqlarımızı işğaldan azad edəcək döyüş kimi davam etdirir.*



**Zabit Emin Əkbərov:**

- Tarixən saysız-hesabsız igid oğullar yetişdirən məmləkətimiz bu gün cəsur oğulları ilə tarixi salnamə yazır. Öz gücü, qüdrəti ilə seçilən və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacaran



Azərbaycan Ordusunun şəxsi heyəti adından demək istəyirəm ki, məkrli niyyətindən əl çəkməyən düşmənin təxribatına hər zaman tərəfimizdən layiqli cavab verilib, verilir və bundan sonra da veriləcəkdir. Məlumdur ki, sentyabrın 27-də düşmənin əl atdığı təxribat ona çox baha başa gəldi və döyüş meydanında bunun əziyyətini artıqlamasıyla çəkməkdədir. Döyüşlər zamanı ata-baba yurdumuzu işğaldan azad etmək istəyimiz qarşısında düşmən uzun müddət tab gətirə bilmədi. Qüvvələrimiz bütün cəbhə boyu qısa müddət ərzində ərazilərimizi düşməndən təmizlədi. Düşmən azad edilən ərazilərimizə yenidən basqın etməyə cəhd etsə də, güclü müqavimətə rast gələrək geri çəkilməyə məcbur oldu. Yaşayış məntəqələrimizi atəş altında saxlayan düşmən mövqeləri qısa müddətdə darmadağın edildi. O mövqelərdə bu gün üçrəngli, ay-ulduzlu bayrağımız dalğalanır. Bir sözlə, oğullarımız Ali Baş Komandanımızın rəhbərliyi ilə düşmən təxribatının cavabını verməklə kifayətlənmədi, əks-hücum həmləsi ilə ata-baba yurdumuzun müəyyən qismini düşməndən təmizlədi və bu yolda inamla irəliləyirlər. Düşmən artıq anlamalıdır ki, bizim torpaqlarda onlara yer yoxdur və bilməlidir ki, nə qədər tez təslim olsalar və ərazilərimizi xoşluqla tərk etsələr, onlar üçün o qədər yaxşı olacaq. Xalqımız ordusuna dəstək vermək üçün birləşdi. Bu gün Azərbaycan xalqı çoxdan intizarında olduğu günləri yaşayır. Bu günlər tarixə düşəcək, dərsliklərə salınacaq günlərdir. Qürur duyuram ki, bu tarixi döyüşlərin iştirakçısıyam. Qürurluyam ki, torpaqlarımızın işğaldan azad olunmasında əsgərlərimlə birlikdə mənim də payım var. Döyüşlər zamanı düşmənin fəaliyyətinə az-çox bələd olan biri kimi deyə bilərəm ki, rəqibimiz bizimlə müqayisəyəgəlməz dərəcədə zəifdir. Belə ki, düşmən qüvvələri istər silah-sursat baxımından, istərsə də şəxsi heyətin döyüş ruhu baxımından bizdən çox geri qalır. Onların mövqelərini azad etdikdən sonra, qaldıqları şəraitə və silah anbarına baxdığım zaman şəraitsizliyin nə olduğunu anladım. Bu şəraitdə nəinki döyüş fəaliyyətini təşkil etmək, heç gündəlik fəaliyyətlə də məşğul olmaq mümkün deyil. Gedən döyüşlərdə Azərbaycan Ordusu düşmənə nəyə qadir olduğunu göstərdi, onu lərzəyə salmağı bacardı. Düşmən ordusu qorxaq əsgərlərdən təşkil edilib, regionun güclü ordusu olan Azərbaycan Ordusu isə qəlbi Vətən eşqi, yurd sevgisi ilə döyünən əsgərlərdən komplektləşdirilib. Bunun nəticəsidir ki, düşmən xeyli itkilər verir. Düşmənin döyüşdüyü torpaqlar onun yurdu, Vətəni deyil. Azərbaycan əsgəri bu gün öz Vətənini yağı düşməndən təmizləyir. O düşmən ki, gənc-ixtiyar, qadın-qız, körpə demədən onlara qarşı heç bir insanlığa sığmayan hərəkətlər edib, bu gün və bundan əvvəl də ordumuz tərəfindən haqq elədiyi cəzanı alıb və almaqdadır.



**Gizir Əhməd Qasımov:**

- Komandirlərimizin yüksək döyüş ruhu bizlərə də öz müsbət təsirini göstərir. Hər bir əsgərin uğuru onun ordusunun uğurudur. Bölməmizin şəxsi heyətinin döyüş qabiliyyəti, mənəvi-psixoloji durumunun yüksəkliyi hər bir komandir üçün başucalığıdır. Hamımız yurdumuzun fərqli-fərqli bölgələrindən olsaq da, bu gün üçrəngli bayrağımız altında tarixi qələbəmizin son möhürünü vuracağımız günün ərəfəsindəyik. Bu gün Ali Baş Komandanın rəhbərliyi altında hər bir azərbaycanlı tək yumruq kimi birləşib, düşmənə qarşı müxtəlif cəbhələrdə döyüşürük. Düşmənə qarşı döyüşlərdə ona sarsıdıcı zərbələr endirməyimiz, fərqlənməyimiz bir döyüşçü olaraq hər birimizin başlıca qayəsidir. Yuxarı komandanlıq tərəfindən qarşımıza qoyulan tapşırıqlar tərəfimizdən uğurla icra edilir. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün hər birimiz bu gün ön cəbhədə düşmənə qarşı əks-həmlə hücumu ilə cavab veririk. Hərbidən anlayışı olan hər bir kəs yaxşı bilir ki, döyüş fərdin təkcə atıcılıq, cəldlik keyfiyyətlərinin sınaqdan keçirilməsi deyil. Döyüş insandan möhkəm səbr, polad iradə də tələb edir. Bu keyfiyyətlərin şəxsi heyət tərəfindən düzgün mənimsənilməsində başlıca rol oynayan amil, şübhəsiz ki, Vətən sevgisidir. Bölməmiz tərəfindən keçirilən əməliyyatlar zamanı şəxsi heyətimiz bu sınaqlardan üzüağ çıxmağı bacarır və əminik ki, sona qədər də layiqincə bacaracaq. Çünki Vətən sevgisi, yurd eşqi yüksək olan ordunun şəxsi heyətinin qarşısında heç bir düşmən dayana bilməz. Komandirlərimiz və əsgərlərimiz, ümumilikdə silahdaşlarımızın hər biri doğma torpaqlarımızı işğaldan birdəfəlik azad edəcəyimiz günün heç də uzaq olmadığını dərk edirik. Bu günə qədər qarşımıza qoyulan tapşırıqların uğurla icra edilməsindən qürurluyuq və önümüzdə qət edəcəyimiz yolun müqəddəsliyi bizi daha böyük uğurlara səsləyir. Uğurlarımızın davamlı olması diləyi ilə, yaşasın, Azərbaycan Ordusu, var olsun, Azərbaycan!

**Əsgər Hünər Məmmədov:**

- Bu gün Azərbaycan Ordusunun əsgərləri, ümumiyyətlə, bütün şəxsi heyəti yeni tarix yazır. Vətənpərvər əsgərlərimiz ordu sıralarına qədəm qoyduğu gündən qalibiyyətə can atır. Torpaqlarımızın məhz onun iradəsinin, əqlinin, fiziki gücünün sayəsində azad olunacağını düşünür. Əsgərlərimiz başa düşürlər ki, torpaqlarımızın işğaldan azad edilməsi, dövlətçiliyimizin təhlükəsizliyinin təmin olunması vətənpərvərlik duyğusundan keçir. Sevinirik ki, şəxsi heyətimiz vətənpərvərlikdən, xalqından ilham alaraq, öz istəyinə, arzusuna, məqsədinə doğru addım atır.

Son dövrlər cəbhədə qazanılan uğurlar Azərbaycan əsgərinin vətənpərvərlik ruhunun yetərincə olduğunu göstərdi. Sentyabrın 27-dən başlayan əks-həmlə əməliyyatı sübut etdi ki, Azərbaycan əsgərini uğura aparan, öz dişi və dırnağı ilə ölməzliyə qovuşduran və səsləyən bir səs var. O səs Vətənin səsidi! O səs gündən-günə böyüyür və azad olunan yaşayış məntəqələrimizdən bütün Qarabağa yayılır. O səs qeybdən gələn İlahi bir səsdir. Əbədi həkk olunub yaddaşlarımıza o səs. O qocalmır, ölmür, daim yaşayır və Azərbaycan əsgərini döyüşdən-döyüşə səsləyir.

Bəlkə də İlahidən güc alaraq döyüş meydanında, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə dostlarım Elvin Mədətov və Rüfət Əsədullayevlə birgə düşmənin 7 tankını, 1 PDM-ni, silah-sursat dolu 1 avtomobil texnikasını və 2 müşahidə məntəqəsini məhv etdik. Döyüş meydanında hər birimizin diqqəti düşməni məhv etməyə və Qələbəyə köklənib. Əslində, digər məsələlər bizim üçün təfərrüatdır. Hər bir düşmən texnikasını məhv etdikcə, torpaqlarımızdan düşməni qovduğumuza şahid olduqca göz yaşlarımıza hakim ola bilmirdik. Düşmən də bildi ki, qəlbi Vətən eşqi ilə döyünən Azərbaycan əsgərinə heç bir qüvvə mane ola bilməz.

Bu savaşa tezliklə son qoyulacaq, torpaqlarımız işğaldan azad olunacaq, yalnız onda şəhidlərimizin ruhu qarşısında borcumuzu yerinə yetirmiş olacağıq. Bunu xalqımızın igid oğullarının, Azərbaycan Ordusunun şəxsi heyətinin qətiyyəti sayəsində tezliklə həyata keçirəcəyik. Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqının, millətinin və dövlətinin yükünü çiyinlərində daşımaq məsuliyyətini üzərinə götürən ordumuzun gücü sayəsində Qələbə çox uzaqda deyil.

**Əsgər Ruhəddin Məmmədəliyev:**

- Bu gün bütün dünya Azərbaycanın haqq mübarizəsinin canlı şahidi olur. Tutduğumuz yol haqq yolu, mübarizəmiz haqlı tərəfin mübarizəsidir. Məlumdur ki, Vətənə layiqli övlad olmaq üçün ona olan borcu gərək layiqincə ödəyəsən. Biz də Ali Baş Komandanın döyüş əmri ilə bu Vətənə müqəddəs borcumuzu ödəyir, tarixi ərazilərimizi düşməndən təmizləyirik. Ordumuzun qısa müddət ərzində əldə etdiyi uğurların təkcə ölkə ərazisində deyil, ölkə hüdudlarından kənarda da böyük sevinc hissi ilə qarşılandığını bilirik. Burada da həmyerlilərimizin dəstəyini dərindən hiss edirik. Komandirlərimizin rəhbərliyi ilə düşmənin təxribat mənbəyi olan mövqeləri ələ keçirildi. Hər bir kəs döyüş tapşırığı alanda, həyəcan, adrenalin hissləri bir-birini əvəz edir. Bu günlər mənim xatirimə əbədi həkk olunacaq. Tarixi torpaqlarımızın azad olunması naminə gecə-gündüz Vətənə, xalqa vicdanla xidmət edirik. Biz tarixən mənəvi dəyərlərimizə söykənən qəhrəmanlıq ənənələrini, döyüşçülərimizin hərbi keyfiyyətlərini bu gün yaşadırıq. Yaşadırıq ki, bizdən sonra gələn nəsil də yaşatsın. Ordumuzun müxtəlif istiqamətlərdə qazandığı qələbələr və azad etdiyi ərazilərlə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xoş müjdəli xəbərləri xalqımızla bölüşməsi hər bir azərbaycanlının ruhuna sığal çəkdi, xoş əhval-ruhiyyə bəxş etdi. Xalqımız əmin ola bilər ki, bu müjdəli xəbərlərin ardı gələcək. Bu gün hər birimiz xalqımızın və dövlətimizin bizə olan inamını hiss edir, dəstəyini görürük. Xalqımızdan aldığımız əvəzolunmaz stimulu ifadə et-



məkdə sözlər aciz qalır. Bizi qazanılacaq uğurlara ruhlandıran məhz həmvətənlərimizin bizlərə olan inamıdır. Tarixi torpaqlarımızın işğaldan azad olunması üçün vaxtından, hava şəraitindən və olduğumuz ərazinin relyefindən asılı olmayaraq döyüş əməliyyatlarında qürurla iştirak edir, Vətənə övladlıq borcumuzu ödəyirik. Güclü Azərbaycan Ordusunun əsgəri olaraq hər birimiz çalışırıq ki, xalqımızın çoxdan həsrətində olduğu günü daha da yaxınlaşdıraq, torpaqlarımızı işğaldan tam azad edək. Hər birimiz müqəddəs amala xidmət edirik və bizi bu yoldan heç nə döndərə bilməz. Ali Baş Komandanımızın rəhbərliyi, xalqımızın bizə olan dəstəyi olduğu müddətcə bu Vətən var olacaq, yaşayacaq. Əminliklə deyə bilərəm ki, Dağlıq Qarabağ və ətraf 7 rayon işğaldan tam azad olunana qədər hər birimiz qəhrəmancasına döyüşəcək, lazım gələrsə, canımızı və qanımızı əsirgəməyəcəyik. Şanlı tariximizə Böyük Qələbə gününü qızıl hərflərlə yazacağıq və o müqəddəs günü - Böyük Qələbə gününü xalqımızla birlikdə Cıdır düzündə qeyd edəcəyik.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan əsgərinin döyüş andı Qələbədi



(Əvvəli 4-cü səhifədə)

**Gizir Raul Bayramov:**

- Hər birimiz yaxşı bilirik ki, xalqın güvənc yeri, dövlətin qarantı onun ordusudur. Ona görə də hərbçi peşəsi tarixən şərəfli peşələrdən biri olub. Çünki rütbəsindən və vəzifəsindən asılı olmayaraq bizlərə ən mühüm vəzifə - Vətəni qorumaq missiyası həvalə edilib. Müqəddəs peşənin sahibi olaraq Vətənimizin varlığı, torpaqlarımızın bütövlüyü uğrunda düşmənə qarşı ürəklə vuruşuruq. İşğaldan azad etdiyimiz ərazilərə ayaq basarkən, düşmənin üzərinə daha qətiyyətlə gedərkən, onu geri çəkilməyə məcbur edərkən, tarixən bizə aid olan ərazilərə qədəm qoymaq istəyi idi bizə stimul verən. Həmçinin bizi qələbəyə ruhlandıran əsas amillərdən biri Ali Baş Komandanımız başda olmaqla, dünya azərbaycanlılarının bizlərə olan inamıdır. Biz də öz növbəmizdə onların bizə olan etimadını düşmənə sarsıdıcı zərbələr vuraraq doğrulduruq. Torpaqlarımızın azad olunmasında iştirak edən bölmənin hərbi qulluqçusu olaraq qürurluyuq. Həm də qürurluyuq ki, bu tarixi anların iştirakçısıyıq. Bu döyüşlərdə ordu-xalq birliyinin səviyyəsi bir daha təsdiqləndi və xalqımızın dəstəyini dərindən hiss edirik. Biz də öz növbəmizdə xalqımızı əmin edirik ki, Azərbaycan əsgəri Vətənə şərəflə, ləyaqətlə xidmət edir, düşmənə layiq olduğu cavabı verir. Bu gün komandir olaraq, tabeliyimdə döyüş ruhu yüksək olan, düşmənə layiqli cavab verən əsgərlərimlə çiyin-çiyinə dövlətimizin, xalqımızın haqq mübarizəsində iştirak edirik. Bu günlər hər birimizin qürur duyacağı günlərdir. Bu günlər tarixə qızıl hərflərlə yazılacaq günlərdir. Dünya bilsin ki, Azərbaycan əsgərini bu tarixi ədalətin bərpasından heç bir qüvvə ayıra bilməz. Düşmən qüvvələri də Azərbaycan Ordusunun gücünü, Azərbaycan əsgərinin döyüş ruhunu dərindən hiss etməkdədir. Döyüşlər zamanı düşmənin qaçması bizə bunu deməyə əsas verir. Vətəni uğrunda döyüşən Azərbaycan əsgəri, nə uğrunda döyüşdüyünü bilməyən, Vətən anlayışı olmayan bir millətin əsgərinə qarşı vuruşanda bu cür hadisələr mümkündür. Gedən döyüşlərin məntiqi nəticəsi olaraq, ən böyük arzum çoxdan arzusunda olduğum Şuşaya, Laçına, Xankəndiyə,... əsgərlərimlə birlikdə ayaq basmaqdır ki, bu gedişlə o günlər uzaqda deyil.

**Zabit Mobil Rzayev:**

- Düşmənin sentyabrın 27-də əl atdığı təxribatın nəticəsi onun hikkəsi və arzusu ilə üst-üstə düşmədi, əksinə, onun ziyanına oldu. Ordumuz bütün cəbhə boyu ərazilərdə düşmənə güclü zərbələr endirir. Düşmən silahını, texnikasını, meyitlərini və yaralı yoldaşlarını atıb qaçır. Adamın düşməni də gərək kişi kimi döyüşə. Lakin biz düşmənin döyüş meydanından kənarda mülki əhali və onların evlərinə açdığı atəş nəticəsində yaranan səhnələrin şahidi oluruq. Bu, düşmənin qorxaqlığından, vandallığından xəbər verir. Tarixən onlar öz əməlləri ilə terrorizmi dəstəkləyiblər. Lakin bu əməllər nə mülki əhalimizin möhkəm iradəsinə mənfi təsir göstərir, nə də Azərbaycan əsgərinin döyüş ruhuna. Əksinə, xalqımız ordusuna inanır, bizlər isə xalqımızın bizə olan etimadını doğrulduruq. Düşmənə qarşı komandirlərimiz tərəfindən qoyulan cavab tədbirləri tərəfimizdən uğurla icra edilir. Bu döyüşlərin önəmli tərəfinə nəzər salsaq, qürurla deyə bilərik ki, uğurlu əməliyyatlar zamanı düşməndə olan bir sıra strateji ərazilər güclü ordumuz tərəfindən Vətən torpaqlarına birləşdirildi. Keçirilən hərbi əməliyyatların önəmi həm də ondan ibarət oldu ki, təkcə düşmən deyil, dünya ölkələri də regionda əsas güc sahibi olan Azərbaycan Ordusunun döyüş qabiliyyətinin şahidi oldu. Düşmən təxribata əl atdığı günü bölməmiz tərəfindən təxirəsalınmaz cavab tədbirlərinin görülməsi barədə komandanlıqdan tapşırıq aldıq. Düşmən tərəfdən mövqelərimizə təhdid yaradan, yaşayış məntəqələrimizi atəş altında saxlayan obyektlərin susdurulması yönündə ordumuzun müxtəlif bölmələri hərəkətə keçdi. Bölməmizin şəxsi heyəti komandirlərin rəhbərliyi altında, gözlərində qisas hissi ilə düşmənə əsl dərs keçdi. Şəxsi heyət elə vuruşurdu ki, həqiqətən, hiss olunurdu ki, onlar bu günü çoxdan gözləyirmişlər. Xalqımız isə bizdən tarixi yurdlarımızın işğaldan azad olunmasının müjdəli xəbərlərini gözləyir. Hər birimiz o günü xalqımıza yaşadacağımıza inanırıq. Əminik ki, tezliklə Böyük Qələbənin möhürünü vurub, tarixi torpaqlarımızın həqiqi sakinlərinin öz ocaqlarında yenə toy-bayram sədalarını eşidəcəyik.



**Çavuş Azər Süleymanov:**

- Bu döyüşlərdə rütbəsindən, vəzifəsindən asılı olmayaraq hamımız bir yumruqtək birləşib, düşmənə layiq olduğu cavabı verdik və bu gün də verməkdəyik. Düşmən ona verilən adekvat cavabdan panikaya düşdü, arzusu ürəyində qaldı. Xeyli itkilər verərək, geri çəkilməyə məcbur oldu, həm də qaçaraq, arxasına baxmadan. Düşmənin canlı qüvvədən başqa, döyüş texnikası, artilleriya sistemi, mühəndis qurğuları darmadağın edildi. Bu döyüşlər bir daha sübut etdi ki, erməni ordusunun gücü bizim ordumuzun gücündən müqayisəyəgəlməz dərəcədə aşağıdır. Ərazi düşməndən təmizləndikdən sonra düşmənin texnikalarını nəzərdən keçirdik. Köhnə texnikalar, qaldıqları yerdə şəraitsizlik, sadəcə ürək bulandırırdı. Bu şəraitdə xidmət edən əsgərdən nə gözləmək olar? Təbii ki, uğursuzluq. Döyüş vaxtı fəaliyyətlərini izləyərkən onların döyüş ruhunu hiss etmək o qədər də çətin deyildi. Məsələyə digər aspektdən baxsaq, erməni qüvvələri öz ərazilərində döyüşmürlər, ona görə də sual olunur: "Öz torpağı, Vətəni uğrunda döyüşməyən kəs niyə bu yolda canını fəda etməlidir?" Ona görə də düşmən çıxış yolunu qaçmaqda görür. Çünki onlar məğlubiyyətə məhkumdurlar. Amma bizdə necədir? Bizim döyüşçülər Vətən yolunda qanını və canını əsirgəmir, son nəfəsinədək döyüşür. Çünki Vətən sevgisi bizə atababalarımızdan keçib. Bu gün ordumuzda tarixi sərkərdəlik və döyüşçü ənənələrini yaşatmağa davam edən kifayət qədər hərbçilərimiz var. Bölməmizin əsgərləri düşmənə göz açmağa imkan vermirdi, onlara qarşı rəşadətlə vuruşurdular. Təbii ki, hər əsgərin uğuru komandir üçün başucalığıdır və bu uğur qələbəyə inamın və möhkəm iradənin məhsuludur. Bu gün Azərbaycan əsgəri yurdunun haqq mübarizəsini aparır, tarixi ərazisini separatçı qüvvələrdən təmizləyir, tarixi salnamə yazır. Cəbhə yoldaşlarıma və digər cəbhədə olan qardaşlarıma bu yolda uğurlar arzu edirəm. Düşmən bilsin ki, nə qədər ki, onlara aid olmayan ərazilərlə bağlı iddialar irəli sürməyə davam edəcək, Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə onun cavabını lazımınca verəcək.



**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Neman Cəfərov:**

- Qədim dövrdən igidlər məskəni olan yurdumuzun bugünkü Vətən müdafiəçiləri tariximizə qızıl hərflərlə yazılacaq günün təşnəsidirlər. Hər birimiz bu günün çoxdan arzusundayıq. Bu gün hər birimiz arzusunda olduğumuz günün sevincini yaşayırıq. Öz xain addımlarından əl çəkməyən düşmənin cavabı güclü ordumuz tərəfindən hər zaman verilib. Bu gün də müqəddəs torpaqlarımızı düşməndən azad etmək üçün hər birimiz döyüşlərə atılmışıq. Bu döyüşlərdə ölkə, xalq, ordu, bir sözlə, bütün Azərbaycan düşmənə öz gücünü göstərdi. Belə ki, xalqın mənəvi dəstəyindən, Ali Baş Komandanının qətiyyətindən güc alan Azərbaycan Ordusu bu gün düşmənin cavabını verməkdədir. Ali Baş Komandan və Azərbaycan xalqı sülh danışıqlarının nəticə verməyəcəyi təqdirdə, ordumuzun ədaləti bərpa edəcəyinə inanır. Düşünürəm ki, bizlərə olan inamı, etimadı layiqincə doğrulduruq. Döyüşlər gedən vaxtı tarixi torpaqlarımızı işğaldan azad etmək arzusu ilə vuruşurduq. Hər gün də işğalda olan digər ərazilərimizi düşməndən təmizləmək istəyi bizə əsas stimul verən amillər sırasındadır. Qazanılan uğurlar bizi daha yeni uğurlara səsləyir. Döyüşlərin gedişatından danışsaq, deyə bilərəm ki, yaşından, rütbəsindən, vəzifəsindən asılı olmayaraq döyüş meydanında hər birimiz bir bütün olduq, düşmənin qorxulu yuxusuna çevrildik. Qəsbkarlar tərəfindən sağ qalanlar bu günləri çətin unuda. Döyüş meydanında öz silahdaşlarını atıb qaçanlar kim, yaralananlar kim, bir sözlə, düşmən həm fiziki, həm də mənəvi cəhətdən məğlub oldu. Onlar ömürlərinin axırına qədər bu utancla yaşamağa məcburdurlar. Biz isə həlledici döyüşə hərtərəfli hazırıq. Yaşasın, Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vasif Namazov:**



- Məlum tarixdə düşmənin yenidən çirkin əməllərə əl atması, ölkə rəhbərinin tarixi qərarı ilə sonuclandı. Düşmənin həmləsini dəf etməyi bacaran Azərbaycan Ordusu onu geri çəkilməyə məcbur etdi. Döyüşlərin getdiyi qısa müddət ərzində böyük uğurlar qazandıq. Artıq döyüş meydanında üstünlük bizim tərəfimizdədir. Erməni silahlı qüvvələri nə maddi-texniki təminat baxımından, nə də döyüş ruhu baxımından bizimlə mübarizə aparmaq qabiliyyətində deyil. Düşmən tərəfimizdən azad olunmuş mövqelərə soxulmağa cəhd etsə də, ilk həmlədəki kimi xeyli itkilər verdi və məğlub olub geri çəkildi. Bu gün istər ön, istərsə də arxa cəbhədə düşmənə qarşı vuruşan hər bir azərbaycanlının qəlbində bir ucalıq var - Vətən. Bu ucalıq bizi qələbələrə doğru aparır. Bizi son damla qanımızadək, axırıncı nəfəsimizədək döyüşdürən də məhz bu ucalıqdır. "Vətəni sevmək Ananı sevməkdir" deyirlər, "Ananı sevmək isə Vətəni" sevmək. Bu iki məfhumun vəhdətindən Ana Vətən anlayışı yaranır ki, onu qorumaq qəlbi Vətən eşqi, Ana sevgisi ilə coşub-daşan hər bir kəs üçün ən ümdə vəzifədir. Düşmən qəlbimizdə Ana Vətənə sədaqət hissi coşub-daşdığına görə məğlubiyyətə düçar olmağa məhkumdur. Onlar anlamalıdırlar ki, tarixən əbədiyaşar sərkərdələr yetişdirmiş yurdumuzda qorxaq erməni əsgərinə yer yoxdur. Bu tarixi anların iştirakçısı olmaqdan qürur duyuruq. Qürur duyuram ki, düşmən işğalında olan ərazilərimizin geri qaytarılmasında az da olsa mənim də rolum var. Hər birimiz Ali Baş Komandanımıza minnətdarıq. Minnətdarıq ki, illərdir bərpa olunmayan ədalətin bərqərar olunması üçün döyüş əmrini verdi. Bu əmr Ali Baş Komandan-xalq-ordu birliyini bütün dünya ölkələrinə nümayiş etdirdi. Ölkə Prezidentinin dəstəyi, xalqın etimadı Azərbaycan əsgərini qələbələrə səsləyir. Daha Böyük Qələbələr diləyi ilə, Qarabağ Azərbaycandır!

# Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşeləri və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq keçirilib



Oktyabrın 11-də Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşeləri və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün brifinq keçirilib.

Brifinqdə bildirilib ki, sentyabrın 27-dən etibarən Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı təxribatları başlayıb. Azərbaycan vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün beynəlxalq hüquq normaları çərçivəsində ordumuz tərəfindən əks-həmlə əməliyyatı həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə deyib.

Brifinq iştirakçılarına işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatlar və azad olunmuş ərazilər, düşmən qüvvələrinə vurulmuş ziyan barədə məlumat verilib. Bundan əlavə, qonaqlara təmas xəttindən xeyli uzaqda yerləşən Azərbaycanın şəhər və rayonlarına düşmənin raket və artilleriya zərbələri endirməsi barədə də ətraflı məlumat çatdırılıb.

Bildirilib ki, Azərbaycan Ordusu yalnız Ermənistanın hərbi texnikasını hədəfə alır. Lakin Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini hədəfə alır, hətta təmas xəttindən uzaqdakı şəhərləri raketlə atəşə tutur.

İdarə rəisi qeyd edib ki, bu gün Ermənistan Azərbaycanın tarixi və ikinci böyük şəhəri olan Gəncəni raket atəşinə tutması nəticəsində aralarında qadınların və uşaqların da olduğu mülki şəxslər həlak olub və xəsarət alıb. Bundan başqa, mülki infrastruktura ciddi ziyan dəyib.

# Döyüşlərdə iştirak edən qoşunlar üçün səyyar təminat məntəqələri yaradılıb



*Döyüş əməliyyatlarında iştirak edən şəxsi heyətin təminat və təchizat məsələləri diqqət mərkəzində saxlanılır və dərhal həll olunması ilə bağlı tədbirlər görülür.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunların hərbi texnika, silah-sursat, yanacaq-sürtgü materialları, ərzaq və əmlakla təmin edilməsi müvafiq idarə və xidmətlər tərəfindən sutka ərzində fasiləsiz həyata keçirilir. Bu məqsədlə döyüşlər gedən ərazilərə yaxın yerlərdə səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb.

# Düşmənin bütün cəbhə boyu fəaliyyətinin qarşısı alınıb

**12 oktyabr 2020-ci il.**

Oktyabrın 11-dən 12-ə keçən gecə bütün cəbhə boyu vəziyyət gərgin sabit qalıb.

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib.

Həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya rəisi tabeliyində olan bölmə ilə Hadrut yaşayış məntəqəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə təhkim olunmuş texnikanı döyüş mövqelərində qoyub qaçıb. Bundan əlavə, 5-ci və 522-ci alayın şəxsi heyəti avtomobil və zirehli texnikalarını da mövqelərdə ataraq geri çəkilib.

Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilib.

Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var.

Ermənistan silahlı qüvvələrinin 1-ci alayının müdafiə sahəsində geri çəkilən bölmələr arasında rabitə və qarşılıqlı əlaqənin pozulması səbəbindən bölmələr bir-birinə atəş açıb. Tankəleyhinə və digər bölmənin şəxsi heyəti də döyüş mövqelərini tərk edib.

Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünə malikdir.

* * *

Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 PUA-sı, saat 10:00 radələrində isə Ağdam rayonu istiqamətində 1 PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilib, 1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi pusquya salınıb, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılıb.

Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilib.

Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik halları müşahidə olunur.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.





**13 oktyabr 2020-ci il.**

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib.

Oktyabrın 12-dən 13-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində ümumi vəziyyət gərgin olaraq qalıb.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

**14 oktyabr 2020-ci il.**

Oktyabrın 14-də saat 01:00 radələrində Ermənistan Respublikası tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ilə yaxın sərhəd zonasında bir neçə əməliyyat-taktiki ballistik raket kompleksinin start mövqeyində yerləşdirilməsi müşahidə olunub.

Bu ərazidəki raket kompleksləri Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərindəki dinc əhali və infrastruktura doğru hədəflənmişdir.

Oktyabrın 11-də Ermənistan tərəfindən Gəncə şəhərində törədilmiş hərbi cinayətə bənzər növbəti hadisənin təkrarlanmasının və raket hücumunun qarşısının alınması məqsədilə Azərbaycan Ordusu tərəfindən qabaqlayıcı tədbirlər görülüb.

Nəticədə atəş üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki raket kompleksləri legitim hərbi hədəf kimi tərəfimizdən zərərsizləşdirilib.

Bildiririk ki, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rejiminin üzərinə düşür.

* * *

Cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

* * *

Oktyabrın 14-ü saat 08:36 radələrində Ermənistan Respublikasının Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərində Ermənistan silahlı qüvvələri növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilmişdir.

Mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə operativ-taktiki raketlər Gəncə, Mingəçevir və digər şəhərlərə doğru hədəflənmişdi.

Mülki insanların təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılmışdır.

Bundan əvvəl saat 01:00 radələrində həmin istiqamət üzrə start vəziyyətinə gətirilmiş əməliyyat-taktiki raket kompleksi də dəqiq zərbə ilə məhv edilmişdi.

Raketlərin atəş vəziyyətinə gətirildiyi məntəqələrdə hər hansı mülki infrastruktur və obyektlər olmamışdır.

* * *

Oktyabrın 14-ü günorta saatlarında cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA bölmələrimiz tərəfindən məhv edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan əsgəri erməni xəyanətini dayandırır

*Sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq işğal olunmuş torpaqlarımızdan digər ərazilərimizi intensiv atəşə tutdu. Azərbaycan Ordusu düşmənin hücumunun qarşısını aldı, əks-hücuma keçdi. Hazırda döyüşlər davam edir. Bu münaqişə həm də 300 illik erməni siyasətinin davamıdır və Azərbaycan Ordusu öz qalibiyyəti ilə bu siyasətə son qoyacaqdır.*

1453-cü ildə Osmanlılar Konstantinopolu fəth etdi. 1461-ci ildə Bursa şəhərindəki erməni yepiskopu Hovakim Ovakimi Osmanlı İmperiyasında bütün ermənilərin patriarxı təyin olundu. Bu hadisələrdən sonra imperiya tərkibində yaşayan müsəlmanlarla ermənilər arasında XVIII əsrin əvvəllərinə qədər dostluq münasibətləri başladı.

Avropa, Asiya və Afrika qitələrində geniş torpaqları olan Osmanlı İmperiyası XVII əsrin sonlarından etibarən zəifləməyə başladı. Bu zəifləmədən istifadə edən Rusiya və Avropa ölkələri "Avropanın xəstə adamı"nın (Çar I Nikolay zəifləyən Osmanlı İmperiyasını belə adlandırırdı) torpaqlarını bölüşdürmək uğrunda sanki "yarış"a başladı. Bu yarışda "daxili satqın" və ya "qalanın içindəki xain" ermənilər Sultana sadiq görünsələr də, Osmanlını parçalamaq istəyən xarici qüvvələrlə gizli əməkdaşlıq edərək onlara lazım olan məlumatları çatdırırdılar.



Böyük Pyotr daha sonra isə II Yekaterina və I Aleksandr Qafqazın işğalı zamanı Rusiyanın "qərbə genişlənmə" siyasətini həyata keçirərkən ermənilərdən casus kimi məharətlə istifadə etdilər. Lakin bunun müqabilində ermənilərə verilən vədlər yerinə yetirilmədi və onların müstəqil dövlət qurmaq arzuları ürəklərində qaldı.

Osmanlı İmperiyasının ucsuz-bucaqsız torpaqlarını ələ keçirmək istəyən dövlətlər xristianlıqdan istifadə edərək erməni cəmiyyətini buna alət etdilər. Bu siyasəti xüsusilə ortodoks ruslar, katolik fransızlar və protestant ingilislər həyata keçirdilər. Ermənilər müsəlman türklərə qarşı istifadə edildilər və özləri də bundan məmnun qaldılar.

XVIII əsrin əvvəllərindən başlayaraq ermənilər türk yurdlarında casusluq etməklə və ya xəyanətkarlıqla rus və avropalıların etibarını qazanmağı bacardılar. Yaranmış xəyanət şəbəkəsinin fəaliyyəti nəticəsində "xidmətlərinin" qarşılığı olaraq ruslar ermənilərə Qafqazın müxtəlif bölgələrində torpaqlar hədiyyə etdilər. Bu torpaqlar, əslində, müsəlman əhaliyə məxsus idi, lakin ermənilər yenə rusların köməyi ilə bu əhalini öz doğma torpaqlarından zorla çıxartdılar, onların malik olduğu bütün əmlakı özününküləşdirdilər. 1827-ci ildə rus işğalından qabaq İrəvan şəhərinin əhalisinin 80 faizi müsəlmanlar idi. Halbuki bu şəhər monoetnik Ermənistanın paytaxtıdır və orada indi, ümumiyyətlə, türk-müsəlman əhali yaşamır.

Birinci Dünya müharibəsi zamanı ermənilər Anadoluda türklərə qarşı casusluq fəaliyyəti ilə məşğul olmuş, eyni zamanda, cəbhədə döyüşən türk ordularına arxadan hücum edərək xəyanət etmişlər. 30 may 1915-ci ildə Osmanlı Nazirlər Kabineti ermənilərin müharibə xəttinin arxasından köçürülməsi haqqında qərar qəbul etdi. Bu qərar döyüşən türk ordularının cəbhə arxasındakı təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı. Ermənilər bu köçürməni "soyqırımı" adı altında bütün dünyaya çatdırmağa çalışırlar. İkinci Dünya müharibəsi illərində Yaponiya-Amerika toqquşması zamanı Amerikadakı yaponlar başqa yerlərə köçürüldü və bir müddət ciddi nəzarət altında saxlanıldı. Halbuki onların casusluq edəcəklərinə dair şübhələr yox idi.

Müstəqil dövlət qurmaq mübarizəsində erməni xalqı heç vaxt nəticə əldə edə bilməyib. Xəyallarında qurduqları müstəqil erməni dövlətinin torpaqları belə havadarlarının köməyi ilə soyqırımlar törədilərək qovulan müsəlmanlarındır. Ermənilər əsasən rus-türk və rus-fars müharibələrindən xaincəsinə istifadə edib, özünün təkbaşına müharibə meydanında döyüşmə cəsarəti olmayıb. 1918-ci ildə Ermənistan Respublikası adı altında qurulan dövlət isə o torpaqlarda yaşamış yerli türk xalqına aid hər şeyi özününküləşdirən, lakin hələ də müstəqil ola bilməyən bir erməni dövlətidir.

Ermənilərin üçüncü bir tərəfə yaltaqlanaraq, başqasına aid olanı casusluq edərək ələ keçirmə milli strategiyası XVIII əsrdən başlayaraq bu günədək davam edir. Onlar bu strategiya əsasında milli və dini kimliklərini qoruyub saxlamağa çalışırlar. Erməni kimliyinin əsasını təşkil edən bu strateji mübarizə metodu XVIII əsrin əvvəllərindən başlamış, 19-cu, 20-ci əsrlərin əvvəllərində də geniş şəkildə tətbiq edilmişdir.

Erməni milli strategiyası üzrə aparılan mübarizə, tarixi nöqteyi-nəzərdən daim artan dinamika ilə davam etmişdir. Bu dinamikaya paralel olaraq regionun həqiqi sakinləri olan türklər 300 il ərzində mütəmadi köçürülməyə, soyqırımına məruz qalmış və hər dəfə məcburən öz torpaqlarının bir hissəsini itirmişlər. Nəticədə 1988-ci ildə baş verən Qarabağ münaqişəsi də 1700-cü ildən başlayan strateji mübarizənin davamı oldu. Bu münaqişədə də havadarlarına güvənərək terror törədən ermənilər insanları öz torpaqlarından zorla çıxarmış və Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. 2020-ci ilin iyulunda havadarlarının dəstəyi ilə yeni torpaqlar işğal etmək niyyətiylə Azərbaycan Respublikasının Tovuz rayonunu atəşə tutaraq dövlət sərhədlərimizi pozmağa cəhd göstərmiş, yerli əhaliyə və infrastruktura ziyan vurmaq istəmişdi. Təxribatın qarşısı alındı. 27 sentyabr 2020-ci ildə yenidən Azərbaycan ərazilərini atəşə tutaraq öz işğalçılıq siyasətlərini həyata keçirməyə çalışdılar.

Ermənilərin törətdiyi hadisələrin məzmunu eynidir. Bu məzmun terror, vəhşilik, müsəlmanlara zorakılıq, onları doğma yurd-yuvalarından qovma, soyqırımı törətmə və dünyada hay-küy salaraq bütün bunları müsəlmanların üstünə ataraq onlardan torpaq qoparmaqdan ibarətdir. Bölgənin bütün türkmüsəlman əhalisi üç əsrdir ki, eyni "bəla"dan, eyni "xəstəlik"dən əziyyət çəkir: erməni xəyanəti.

Azərbaycan Ordusu əkshücum əməliyyatına başladı, Ali Baş Komandanın əmriylə ordumuz bu əməliyyatı tam qələbəylə tamamlayacaq, torpaqlarımızı işğaldan azad edəcək.

Döyüşlər təkcə Qarabağ uğrunda deyil, həm də 300 illik bir strategiyanın kökündən yox edilməsi üçündür.

Azərbaycan xalqı, türk milləti Qarabağ münaqişəsinin qalibi kimi, eyni zamanda, 300 illik müharibənin də qalibi olacaqdır. Bu qalibiyyət erməni psixologiyasını kökündən dəyişəcək və mövcud olan erməni ideologiyasını iflasa uğradacaqdır.

Sən əsrlərlə davam edən zülmün qarşısını alırsan, Azərbaycan əsgəri!

Özünlə fəxr et, adını tarixə qızıl hərflərlə yazdıracaq 300 illik müharibənin qalibi olacaqsan, Azərbaycan əsgəri!

**Polkovnik-leytenant Pünhan NƏSİBOV, Silahlı Qüvvələrin Hərbi Akademiyası**

## Azərbaycan Müdafiə Nazirliyinin bəyanatı

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, oktyabrın 10-u və 11-i tarixlərində, müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

## "Azərbaycan əsgəri mülki əhali ilə deyil, əli silahlı işğalçı ilə müharibə aparır"

Ermənistan tərəfinin Azərbaycan hərbçilərinin Hadrutda dinc sakinləri - qadın və onun əlil oğlunu guya qətlə yetirmələri barədə yaydığı xəbər əsassızdır, heç bir fakta söykənmir və beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədini güdür.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, birincisi, Ermənistan tərəfi hələ də Hadrutun itirilməsi və onun Azərbaycan nəzarətinə keçməsi fikri ilə heç cür barışa bilmir. Gün ərzində Hadrut ilə əlaqədar ziddiyyətli məlumatlar yaymaqla isə Ermənistan tərəfi öz əhalisini bu mövzu ilə bağlı çaşqınlıq içində saxlayır.

İkincisi, nədənsə həmişə "dəqiqliyə" və "incə məqamlara" fikir verən Ermənistan bu dəfə "qətlə yetirilən" şəxslərin ad və soyadlarını geniş ictimaiyyətə açıqlamır. Tam əminliklə bildirmək olar ki, ad və soyadlar ya qəsdən unudulur, ya da ümumiyyətlə bu cür şəxslər və hadisə olmadığı üçün onu uydurmaq lazım gəlir.

Üçüncüsü, erməni xalqından daim "iztirab çəkən" obrazı formalaşdırmağa çalışan Ermənistan, bu dəfə də "incidilmişlər" rolunu yenə də qadın və onun əlil oğluna həvalə edir.

Bir daha bildiririk ki, Azərbaycan əsgəri mülki əhali ilə deyil, əli silahlı işğalçı ilə müharibə aparır.

## Mülki əhalimizi və yaşayış məntəqələrimizi hədəfə alan düşmənin bütün legitim hərbi hədəfləri məhv ediləcək

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ermənistan müdafiə nazirliyi etiraf etdi ki, atəş zərbəsi ilə sıradan çıxarılan əməliyyat-taktiki raket kompleksləri (ƏTRK) Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda, mülki obyekt və infrastrukturun olmadığı ərazidə tam döyüş növbəsində və tətbiqə hazır vəziyyətdə olub.

Həmin ƏTRK-lar Azərbaycan ərazisindəki mülki obyektləri və infrastrukturu hədəfə almışdı. Ermənistan müdafiə nazirliyinin guya Ermənistan ərazisindən Azərbaycanın yaşayış məntəqələrinə atəş açılmaması barədə bəyanatları isə açıq-aşkar yalandır.

Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrimizin məhz Ermənistan ərazisindən atəşə tutulması danılmaz faktdır.

Azərbaycanın Ermənistan ərazisində hər hansı hərbi hədəf və maraqları yoxdur. Əksinə, Ermənistan öz ərazisindən Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqla qəsdən münaqişənin coğrafiyasını genişləndirmək məqsədini güdür.

Bildiririk ki, mülki əhalimiz və yaşayış məntəqələrimizin təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəfləri zərərsizləşdirilməsi hüququnu Azərbaycan bundan sonra da özündə saxlayır.

## Vətən savaşı

Sənin intizarına
qurban olum, ay ana,
Gözlərin yollardadır,
qulağın səksəkədə.

Sənin ağrılarına
dərman olum, ay ana,
Oğlun haqq savaşında
döyüşür ön cərgədə.

Bu gün Vətən dardadır,
yollanmışıq cəbhəyə,
Gücü çatmaz düşmənin
qəddimizi əymeyə.

Göy titrəyir, yer yanır
Bu Vətən savaşında.
Qan yaddaşım oyanır
Yurdun hər qarışında.

Bayrağında qanının
Rəngi var şəhidlərin.
Əsirgəməz canını
Savaşda igidlərin.

Qarabağım, Xan bağım,
Nigarandır torpağım.
Şuşanın dağlarına
Sancılacaq bayrağım.

Biz türk oğlu türklərik,
Sakit yatmış şirlərik.
Düşmən qoy unutmasın,
Ona aman vermərik.

Müzəffər, məğrur ordum
Yarıb keçir sədləri.
Düşmən çaş-baş qalıbdır,
Bağlanıb sərhədləri.

Bu gün sən qəhrəmansan,
İgid oğul anası.
Dik tut məğrur başını,
Ey mərd oğul atası.

Sil qəlbindən qüssəni,
Vida et göz yaşına.
Sevincin mərmi kimi
Düşsün düşmən başına.

Düşmən yasa batdıqca
Sən güləcəksən, Vətən.
Sən qalib gələcəksən,
Yüksələcəksən, Vətən!

**Kənan Hacı**

## Qələbəyə az qalıb

Hücuma keçibdi, hamı bilir ki,
Qələbə Vətəni sevənlərindi.
İrəli, əsgərim, hünər vaxtıdı,
Qələbə vaxtıdı, zəfər vaxtıdı.

Azad olacaqdır canım Qarabağ,
Orda dalğalanar üçrəngli bayraq.
Qələbə xəbəri gözləyir hamı,
Çox uzaq deyildir zəfər bayramı!..

**Coşqun Xəliloğlu**

## Olacağıq

Həsrəti biryolluq itirmək üçün,
Daş üstə çiçəklər bitirmək üçün,
Sizi qələbəyə yetirmək üçün
Cığır olacağıq, iz olacağıq.

Yay olsa, bir sərin bulaqdan ötrü,
Yaz olsa, gül açan budaqdan ötrü,
Qış olsa, yanası ocaqdan ötrü
Özün arzulayan köz olacağıq.

Qıymarıq bir daş da qəddini əyə,
Qoymarıq daşları yad kürmələyə.
Dünənki tarixi yaşadır deyə,
Qollarını gərən Bəzz olacağıq.

Görsək ki, çiçəklər solur, saralır,
Görsək ki, göy üzü azca qaralır,
Görsək ki, dağların səbri daralır,
Ərənlər əlində gürz olacağıq.

Tarix üyüşəcək, dursa da qəsdə,
Ümid harayı var hər gələn səsdə.
Böyük Qələbənin yolları üstə
Uğur diləyənin biz olacağıq...

*Döyüşən sətirlər*

# Qələbəniz mübarək, Azərbaycan əsgəri!



*Müharibə gedir. İndi söz də müsəlləhləşib, döyüşlərə səfərbər edilib. Azərbaycan jurnalistikası da, ədəbiyyatı da döyüşənlərimizin mənəvi cəbhədaşlarıdı, yazdıqları əsgəri qələbəyə ruhlandırırsa, əsgərin qələbə ruhunu ifadə edirsə, jurnalist də, şair də mənən onların sırasındadı. Belə əsərlər həm maraqla oxunur, həm də oxuyanı düşündürür. Yaxın vaxtlarda Azərbaycan Ordusunun tam qələbə qazanacağına da, bizə "Qələbəniz mübarək, Azərbaycan əsgəri!" mahiyyətli şeirlər göndəriləcəyinə də əminik...*

**"Azərbaycan Ordusu"**

## Qələbəylə gələcək...

Tərifin sığan deyil
sözə dan yeri, qardaş.
Gəlişin şeir oldu
bizə dan yeri, qardaş.

Sönən deyil bu ocaq,
Közü saçaqlayacaq...
Həsrəti bizdən qabaq
üzə dan yeri, qardaş.

Çiçəklər ləçək-ləçək,
Ləçəkdən şəbnəm içək...
Qələbəylə gələcək
Təzə dan yeri, qardaş!..

**Rəşid Faxralı**

## Qartal

Qucaq açıb gözləyir,
Torpağımız, yurdumuz.
Qələbələr qazanır
Bizim şanlı ordumuz.

Qovuşacağı günü,
Həyəcanla gözləyir.
Hər ana hər əsgərə
Sevgiylə "Oğlum!" - deyir.

İndi göylərimizdə
Bir şirin xəyal uçur.
Yeri kölgələndirən
Uçur, bir qartal uçur.

Düşmənə qarşı gedir
Gedir qətiyyətilə.
Qələbələr qazanır
Əsgər məhəbbət ilə.

Mənim əsgər qardaşım,
Döyüşlə çıxdın yola.
Qələbə qazanırsan,
Sonunda zəfər olar!

Qartalın ömrü uzun,
Qüdrəti bəsdir ona.
Bundan sonrakı ömrün
Yaşasın doya-doya.

Ey sərt baxışlı Qartal -
Şanlı Azərbaycanım!
Mənə sevinclər yaşat,
Sən ey ürəyim-canım!

Gedim görüm yurdumu,
Başım köksünə ensin.
Qartalın uçuşundan
Analar da sevinsin!

## Zəfər qoxusu

Bu gözəl payız günü,
Yağış deyil, nur yağır.
Qələbəmiz düşmənin,
Ürəyini dağlayır.

Axan sular da coşur,
Qartallar qanad çalır.
Qartalın uçuşundan
Qarğalar qanad salır.

Bu yoldur amalımız,
Dilimizdə sözümüz.
Yanacaq ocağımız,
Od olacaq közümüz.

İtir həsrətimizi,
Qeydimizə qal, əsgər.
Qarabağ canımızdı,
Qarabağı al, əsgər!

Döyüşlər gedir indi,
Gəlir zəfər qoxusu.
Uşaqların yaxında
Gerçəkləşər yuxusu.

Göy üzünə yayılar,
Qələbə səsi
Oxunacaq yenə də,
Qarabağ şikəstəsi.

**Aysel Xalıqova**

# "Gün gələcək və Ermənistan həm tarix, həm də beynəlxalq hüquq qarşısında cinayətlərinin hesabını verəcək"

Ermənistanın cinayətkar əməlləri yeni deyil. Bu dövlət hər zaman son dərəcə təcavüzkar davranıb, müharibə cinayətləri törədib. Bu cür fəaliyyətlərə adətkar da olublar. Ermənistan rəhbərliyi Dağlıq Qarabağ məsələsində son dərəcə məsuliyyətsiz davranır. Göstərilən himayədarlıq onları çox həvəsləndirib. Onlar nə beynəlxalq hüquqa, nə də insani dəyərlərə hörmət qoymur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar söyləyib.

Nazir deyib: "Ermənilər məsələlərə əxlaq prizmasından yanaşmaqdan çox uzaqdırlar. Gəncə və bir çox yaşayış məntəqələrinə amansız hücumlar etdilər və bunu davam etdirirlər. Bütün bunlar atəşkəsin pozulması anlamına gəlir. Dinc insanlara qarşı amansız hücumlar edilir. Gün gələcək və Ermənistan həm tarix, həm də beynəlxalq hüquq qarşısında cinayətlərinin hesabını verəcək".

*Redaksiyamızın poçtundan*

# Belə övladın valideynlərinə minnətdarıq

Neçə gündü əsgərlərimiz Ermənistanın hücum əməliyyatına qarşı əks-hücum əməliyyatı aparır. Əsgərlərimiz düşmənlə mərdliklə döyüşürlər. Xalq yenə əsgərlərimizə mənəvi dəstək göstərir.

Ordumuzun əks-hücum əməliyyatı vətəndaşların qələbəyə inamını daha da artırıb. Müxtəlif yaşlı vətəndaşlar Müdafiə Nazirliyinə məktub ünvanlayır, qazanılan qələbələrə görə Ali Baş Komandana, ordumuzun şəxsi heyətinə minnətdarlığını bildirirlər.

3-cü sinif şagirdi Süleyman Hüseynovun Müdafiə nazirinə göndərdiyi məktub onun vətənpərvərliyinin təsdiqidir. Belə övlad böyüdüb tərbiyə etdiyinə görə Siyəzən şəhəri H.Əliyev küçəsi 13, mənzil 4-də yaşayan Hüseynovlar ailəsinə minnətdarlığımızı bildiririk.

Məktubu olduğu kimi dərc edirik.

*Mən 3-cü sinifdə oxuyuram. Döyüşlərdə qazanılan qələbələr məni də, sinif yoldaşlarımı da çox sevindirir. Hamımız "Sağ ol, Azərbaycan əsgəri!" deyirik. Evdə ata-anam, məktəbdə müəllimlərim ermənilərin Azərbaycanda törətdiyi vəhşiliklərdən danışıblar.*

*İndi döyüşlər gedir. Atam Amil də könüllü olaraq döyüşlərə getdi. Mən də, qardaşlarım Davud da, Atilla da inanırıq ki, atamız mərdliklə döyüşəcək, qalib əsgər kimi qayıdacaq.*

*Atamla mən də getmək istədim. Atam razı olmadı. Dedi ki, buna icazə yoxdu. Sənə ancaq Müdafiə naziri icazə verə bilər. Hörmətli nazir, buna görə Sizə müraciət edirəm. Xahiş edirəm, mənim də atamla döyüşə getməyimə icazə verəsiniz. Vətəni mən də qorumalıyam. Sizə söz verirəm ki, yaşım az olsa da, böyüklər kimi qorxmadan döyüşəcəm. Xahiş edirəm, icazə verin.*

**Süleyman HÜSEYNOV,
Siyəzən şəhəri**

Tibb xidməti polkovnik-leytenantı Əkbərov Elnur Fərhad oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 614
Nüsxə 4000